## Azərbaycan Milli Elmlər Akademiyası və Latviya Elmlər Akademiyası arasında elm sahəsində əməkdaşlıq haqqında

# SAZİŞ

Azərbaycan Milli Elmlər Akademiyası və Latviya Elmlər Akademiyası, elmin fundamental problemlərinin həlli üçün beynəlxalq əməkdaşlığın əhəmiyyətini qəbul edərək,

əməkdaşlığın ölkələrimizin sosial-iqtisadi inkişafının aktual problemlərinin həll edilməsinə kömək edəcəyinə ümid edərək,

İki qonşu xalqın qarşılıqlı mədəni zənginləşməsinə təşviq edənAzərbaycan və Latviya alimləri arasında əlaqələrin genişləndirilməsinə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Azərbaycan Milli Elmlər Akademiyası və Latviya Elmlər Akademiyası (bundan sonra Tərəflər adlandırılacaq) hər iki Tərəfi maraqlandıran problemlərin həlli məqsədilə Azərbaycan və Latviyanın elmi müəssisələri arasında birbaşa əlaqələrin inkişafına kömək edəcək.

### Maddə 2

Müqavilə fiziki, texniki, sosial və humanitar elmlər sahəsindəki fundamental elmi tədqiqatları əhatə edir. Habelə, tətbiqi aspektləri də nəzərə almaq lazımdır.

### Maddə 3

Tərəflərin elmi əməkdaşlığının əsas sahələri :

- Hər iki Tərəfin iştirakşçıları və ekspertizası tərəfindən razılaşdırılmış elmi layihələr çərçivəsində birgə elmi tədqiqat ;
- Birgə seminarların, konfransların, simpoziumların təşkili;
- Təsdiq olunmuş layihələrin həyata keçirilməsi üçün alimlərin mübadiləsi;
- Təcrübə mübadiləsi, elmi tədbir və məsləhətləşmələrdə iştirak ;

- Hər iki ölkənin elmi fəaliyyəti və elmi təşkilatları haqda informasiya və ədəbiyyat mübadiləsi;

### Maddə 4

Bu müqavilənin yerinə yetirilməsi üçün ilin müəyyənləşdirilmiş günlərində alimlər ücün elmi mübadilə kvotası təyin edilir. Bu kvota hər il Tərəflərin iştirakı ilə razılaşdırılır və Protokol formasında hazırlanır.

### Maddə 5

Birgə tədqiqat aparılması üçün namizədliyi göndərən tərəf təklif edir. Ev sahibliyi edən ölkə alimlərin kvota çərçivəsində dəvəti haqqında öz istəklərini ifadə etmək hüququna malikdir.

### Maddə 6

Tərəflər hər iki ölkənin elmi institutları arasında qarşılıqlı faydalı layihələrin həyata keçirilməsində birgə fəaliyyət göstərir və zəruri halda, birbaşa qurumlararası sazişlər bağlanmasına dəstək verir. Belə müqavilələr birbaşa aidiyyəti elmi müəssisələrin nümayəndələri tərəfindən müzakirə olunacaq və imzalanacaq. Bu cür əməkdaşlığın maliyyələşdirilməsi iştirakçı elmi müəssisənin imkanlarından asılı olacaq.

### Maddə 7

Bu Saziş hər iki Tərəfin imzaladığı gündən qüvvəyə minir və beş (5) il müddətinə bağlanılır.Tərəflərdən biri bu Sazişin bitməsinə ən azı altı (6) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq bir ( 1) il müddətinə uzadılacaqdır.

Bu Saziş hər biri azərbaycan, rus və latış dilində olan iki əsl nüsxədə hazırlanmış və imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

22 May 2014-cü il

Azərbaycan Milli Elmlər Akademiyası adından

Akif Əlizadə
Prezident

22.05.14

Latviya Elmlər Akademiyası adından

Oyars Sparitis
Prezident